9 iyul / 2020



# KİÇİK ROLLARIN MAHİR İFAÇISI

*Lənkəran Dövlət Dram Teatrının aktyoru, kiçik rolların mahir ifaçısı olan Hikmət Cəfərovun anadan olmasının 60, səhnə fəaliyyətinin 35 ili tamam olur. Bu əlamətdar hadisə münasibətilə sənətçi ilə görüşüb ondan bir neçə suala cavab verməsini xahiş etdik.*



**-Hikmət müəllim, lütfən söhbətimizə özünüz haqqında qısa məlumatla körpü salardınız.**

-Məmnuniyyətlə. Mən Hikmət Musiriddin oğlu Cəfərov 27 mart 1960-cı ildə Lənkəran rayonunun Viyən kəndində anadan olmuşam. 1991-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin mədəni-maarif fakültəsini bitirmişəm. 1985-ci ildən Lənkəran Dövlət Dram Teatrının aktyor truppasında çalışıram. Ötən 35 il müddətində 50-dən çox tamaşada müxtəlif xarakterli rollarda çıxış etmişəm. Buna misal olaraq M.Hüseynin "Cavanşir" (Qənimət), A.Abdullayevin "İnsan və Şeytan" (Sərdar), N.B.Vəzirovun "Hacı Qənbər" (Mayor), C.Yusifzadənin "Bir sarayın oyunları" (Fərraş), M.F.Axundovun "Molla İbrahimxəlil kimyagər" (Ağa Zaman), V.Vişnevskinin "Nikbin faciə" (Alman zabiti), C.Əfruzun "Qanqın böyük dalğası" (Roşik), Elçinin "Mahmud və Məryəm" (Lal), V.Səmədoğlunun "Generalın uşaqlığı" (Kərim), Ş.Əliyevin "Molla Nəsrəddin və Əzrayıl" (Əfəndi), Ə.Səmədovun "Ölüm hökmü" (Qəbirqazan), H.Cavidin "Topal Teymur" (Birinci növbətçi), C.Məmmədquluzadənin "Acı xatirələr" (Qurbanqulu bəy), N.V.Qoqolun "Müfəttiş" (Pristov), S.Qədirzadənin "Şirinbala bal yığır" (Mənsur), Ə.Haqverdiyevin "Xortdanın cəhənnəm məktubları" (Müəllim), C.Məmmədquluzadənin "Danabaş kəndinin məktəbi" (Kərbəlayi), H.Mirzənin "Ay lolo və ya moskvalı gəlin" (Molla Həsənağa) və s. tamaşaları göstərmək olar.

Tamaşalarla yanaşı həmçinin bir neçə teleseriala da çəkilmişəm.

**- Aktyor olmaq həvəsi sizdə nə vaxtdan yaranıb?**

- Orta məktəbi bitirdikdən sonra Bakıda texniki peşə məktəbində elektrik montyoru ixtisası üzrə təhsil almışam. Həmin dövrdə Zabratdakı xalq teatrının bir neçə tamaşasında çıxış etmişəm. 1985-ci ildə Lənkəran Dövlət Dram Teatrında müsabiqə yolu ilə aktyor truppasına müsabiqə elan olunduğunu eşidəndə dərhal rayona gələrək özümü sınamaq qərarına gəldim. Münsiflər heyətində teatrın direktoru, Əməkdar artist Elşad Zeynalov, Baş rejissor, Əməkdar incəsənət xadimi Baba Rzayev, aparıcı səhnə ustası, Əməkdar artist Əli Salahlı kimi azman sənətkarlar təmsil olunurdu. Müsabiqənin elə birinci mərhələsində mənim nəticələrimdən razı qaldılar və beləliklə Lənkəran teatrında yardımçı aktyor kimi əmək fəaliyyətinə başladım. Sonralar qiyabi yolla İncəsənət Universitetində ali təhsil aldım. Amma teatrın səhnəsi mənimçün əsil sənət məktəbi oldu, illər keçdikcə Qabil Quliyev, Nazir Əliyev, Böyükxanım Əliyev, Əli Salahlı, Elşad Zeynalov, Təvəkkül Əliev, Eynəli Nurullayev və digər sənət fədailərinin təcrübəsini əxz etməklə səhnədə addım-addım yeridim, püxtələşdim. Qazandığım uğurlara görə bu sənətkarlara ömrüm boyu minnətdaram.





**-Teatr sizin üçün nədir?**

-Teatr mənim üçün ikinci ailədir. Kollektivin bütün üzvləri doğmalarımdır. Teatr həm də aynadır. Bu aynaya boylanıb eyiblərimi, nöqsanlarımı görəndə dərhal onları düzəltməyə çalışıram.

**-Tamaşaçılar sizi daha çox epizodik rolların ifaçısı kimi tanıyır.**

-Əslində rolun deyil, aktyorun böyük-kiçikliyi var. Məşhur rus teatr islahatçısı Konstantin Stanislavskinin təbirincə desək, kiçik rollar olmur, kiçik aktyorlar olur. Bu deyimin mənası çox sadədir:yəni əsil aktyor, istər kiçik rolda olsun, istər böyük rolda, özünü göstərməyi bacarır. Amma pis aktyor böyük rolu da bərbad vəziyyətə salır. Milli teatr və kino sənətimizin görkəmli aktyorlarından İsmayıl Osmanlı, Ağahüseyn Cavadov, Nəcibə Məlikova, Möhsün Sənani, Hacıməmməd Qafqazlı və digərləri epizodik rollar oynayıblar, amma həmişə öz dəst-xətti ilə seçiliblər.

**İfa etdiyim epizodik rolların hamısı mənə əzizdir. Onların hər birinə məsuliyyət hissi ilə yanaşmış, hər bir obrazı xarakter səviyyəsinə qaldırmaq üçün bütün potensial imkanlarımdan istifadə etməyə çalışmışam.**

**-Həyatda ən böyük uğurunuz?**

-Həyatda ən böyük uğurum övladlarımı layiqli vətəndaş kimi yetişdirib tərbiyə etməyimdir. Allaha şükür ki, buna nail olmuşam.

**-Yaradıcılıq kredonuz?**

- Kiçik rollar yoxdur, kiçik aktyorlar var!

**-Hikmət müəllim, siz həm də müharibə iştirakçısınız...**

-Bəli, 1993-1994-cü illərdə cəbhə bölgəsində düşmənə qarşı vuruşmuşam. Ehtiyatda olan zabit, Qarabağ müharibəsi veteranıyam.

**-Ən böyük arzunuz?**

- Ən böyük arzum işğal olunmuş torpaqlarımızın tezliklə düşmən tapdağından azad olunması, doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın doğma yerlərinə qayıtmasıdır.

Daha bir arzum isə xalqımızın koronavirus pandemiyasından minimum itkilərlə çıxmasıdır.

**Müsahibəni apardı:**
**Ağaddin BABAYEV,**
Lənkəran